# "Biz xoşbəxt gənclərik ki, Azərbaycan vətəndaşlarıyıq"

## Şahin İsmayılov: "Müxtəlif dövlət orqanlarında, parlamentdə, biznes strukturlarında, beynəlxalq təşkilatlardakı gənclərimiz Azərbaycanın inkişafına töhfələrini verirlər"

**Müasir Azərbaycanın qurucusu və memarı, ümummilli lider Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrdən gənclərin himayədarı kimi çıxış edib, sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi sayıb. O, dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında gənclərin iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi qarşıya qoyub. Elə bu məqsədlə də Ulu Öndərin fərmanı ilə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyi yaradılıb. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu daha da artırmaq, dövlətin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə ulu öndər Heydər Əliyev 1995-ci ildə Azərbaycan Gənclərinin Forumunun keçirilməsi təşəbbüsünü irəli sürüb. 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilib. Forumda Azərbaycan Prezidenti Heydər Əliyev şəxsən iştirak edib. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibəti ilə gənclərin bir qrupunu qəbul edən Ümummilli Lider sonradan 2 fevralın Azərbaycan gəncləri günü elan edilməsi haqqında Sərəncam imzalayıb. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur. Belə bir bayram günündə "Kaspi" qəzetinin suallarını Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) sədri, Milli Məclisin Gənclər və idman komitəsinin üzvü, deputat Şahin İsmayılov cavablandırır.**



**- Şahin müəllim, 2 fevral tarixi həm Azərbaycanda Gənclər Günüdür, həm də birinci Gənclər Forumunun 20-ci ildönümüdür. Azərbaycan gəncliyi bu tarixi hansı əhval-ruhiyyə ilə qeyd edir?**

- Azərbaycanda dövlət gənclər siyasətinin formalaşdırılması heç şübhəsiz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Hər zaman gənclərə xüsusi diqqət və qayğı göstərən Ulu Öndər onların dövlətin ictimai-siyasi, sosial-iqtisadi həyatında mühüm rol oynamasının tərəfdarı olub. Elə bu məqsədlə də Azərbaycanın müstəqilliyini ikinci dəfə bərpa etməsindən üç il sonra ölkədə bilavasitə gənclərlə işləyəcək nazirlik yaradıldı. Bunun ardınca "Gənclər siyasəti haqqında" Qanun və gənclər siyasəti sahəsində digər normativ hüquqi aktlar qəbul olunub. Qanunda gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı, istedadlı gənclərə dövlət qayğısı, onların sağlamlığının qorunması və fiziki inkişafı, məşğulluğunun təmin edilməsi, gənc ailələrə, gənclər təşkilatlarına dövlət yardımı gənclər siyasətinin əsas istiqamətləri kimi müəyyən edilib. Azərbaycan gənclərinin forumlarının keçirilməsi ənənəsinin formalaşdırılması da gənclərlə iş sahəsində atılan ciddi addımlardandır. Bu addımlar Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Cənab Prezidentin 2005-ci ildə imzaladığı sərəncamla "Azərbaycan Gəncliyi Dövlət Proqramı" təsdiq edilib və bu, dövlət gənclər siyasətinin həyata keçirilməsi yolunda mühüm fəaliyyət sənədi rolunu oynayıb. Proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda təlim-tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği istiqamətində tədbirlər həyata keçirilib. Gənclər və İdman Nazirliyinin 2006-cı ildə yenidən təşkil edilməsi, 2007-ci ilin ölkədə "Gənclər ili" elan olunması, 2006-2010-cu illər üçün nəzərdə tutulan "Xüsusi istedada malik olan uşaqların - gənclərin yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı"nın icrası, eləcə də 2007-2012-ci illərdə həyata keçirilən "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı" gənclər siyasətinin daha da təkmilləşdirilməsini təmin edib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 5 minə qədər gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi də dövlətin gənclərə, onların təhsilinə, gələcəyinə verdiyi önəmin göstəricisidir. Qeyd olunanlara əlavə kimi, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının qəbulunu, gənclər siyasətilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönələn fəaliyyətlərin stimullaşdırılması məqsədilə Gənclər Fondunun yaradılmasını da göstərmək olar. Təbii ki, bütün bu diqqət və qayğı sayəsində gənclər təşkilatlarının fəallığı da artıb, onların ən müxtəlif layihə və təşəbbüsləri dəstəklənib. Azərbaycanda tətbiq edilən dövlət gənclər siyasəti modelinin başqa dövlətlər tərəfindən öyrənilməsi, tətbiq edilməsi də bu siyasətin nə dərəcədə düzgün olmasının göstəricisidir. İndi qürurla demək olar ki, kifayət qədər savadı, biliyi və zəngin dünyagörüşü olan gənclərimiz bu gün müxtəlif dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında, beynəlxalq təşkilatlarda təmsil olunur, Azərbaycan dövlətinin və cəmiyyətinin inkişafına öz töhfələrini verirlər. Biz xoşbəxt gənclərik ki, Azərbaycan vətəndaşlarıyıq.

**- Siz 30 min üzvü olan və 109 tələbə gənclər təşkilatını öz ətrafında birləşdirən ATGTİ-nin də sədrisiniz və bu səbəbdən gənclərlə ən çox ünsiyyətdə olan insansınız. Maraqlıdır, gənclərimizi düşündürən, narahat edən başlıca problemlər hansılardır?**

- Böyükdən kiçiyə hər bir Azərbaycan vətəndaşının ən əsas problemi ölkəmizin ərazi bütövlüyünün təmin olunması, Dağlıq Qarabağ probleminin sülh yolu ilə ədalətli şəkildə həll edilməsi, işğal altındakı ərazilərimizin azadlığı məsələsidir. Azərbaycan gəncliyi də mütləq şəkildə bu problemin həllini tapmasına öz töhfəsini verir. İstər hərbi, istərsə də diplomatik sahədə, müxtəlif dövlət qurumlarında çalışan gənclər də bu problemin həll olunması üçün Ali Baş Komandanın yürütdüyü siyasətə hərtərəfli dəstək olurlar. Bundan başqa, xarici ölkələrdə Azərbaycanın təbliğatını aparan, onun ərazi bütövlüyünün pozulduğunu, Ermənistanın işğalçılıq siyasətinə məruz qaldığını beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran, erməni yalanlarını ifşa edən gənclərimiz də var. Onlar da bu addımları ilə Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasına dəstək verirlər. Təbii ki, gənclərin şəxsi həyatlarında mənzil-məişət problemləri də var. Bu da normaldır. Gənclərin bu kimi problemlərinin həlli istiqamətində də dövlət səviyyəsində müvafiq addımlar atılmaqdadır. Əsas odur ki, gənclərə dövlət qayğısı göstərilir, onların problemlərinin həll olunması üçün siyasi iradə və konkret fəaliyyət var. Bu da Azərbaycan gənclərini xoşbəxt edir.

**- Müasir Azərbaycan gəncini necə xarakterizə edərdiniz?**

- Müasir Azərbaycan gənci ölkə daxilində və dünyada baş verən prosesləri izləməklə yanaşı, onları analiz edir, düzgün nəticələr çıxarır, hətta qlobal problemlərin həlli istiqamətində fikir və mülahizələr yürüdür. Azərbaycan gənci bu gün dünyanın bir sıra ali orqanlarında kifayət qədər uğurla ölkəsini təmsil edir. Bu təmsilçiliyi ictimai-siyasi, təhsil, idman, səhiyyə və sair sahələrdə görmək mümkündür. İstənilən sahədə Azərbaycan gənci öz dövlətinin bayrağını şərəflə dalğalandırmaq gücündədir. Dünyanın ən müxtəlif elmi-mədəni mərkəzlərinə fikir versək, mütləq orada bir Azərbaycan gəncini - vətəndaşını görə bilərik. Azərbaycan gəncinin siması artıq çoxsaylı xarici dil bilən, intellektual, informasiya və kommunikasiya texnologiyaları sahəsindəki yenilikləri dərindən mənimsəyən, analitik düşüncəli, azərbaycanlı olduğunu heç zaman unutmayan bir şəxs kimi xatırlanır.

**- Bu il ölkəmizdə "Multikulturalizm ili"dir. Multikulturalizmin, tolerantlığın, sülhün, bəşəri dəyərlərin qorunub saxlanmasında Azərbaycan gəncinin rolu nədən ibarətdir?**

- Cənab Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi heç də təsadüfi deyil. Uzun illərdir ölkəmizdə xalqların milli birliyi, ən müxtəlif dinlərin vəhdəti mövcuddur. Ölkə başçısının da qeyd etdiyi kimi, multikulturalizm, tolerantlıq Azərbaycanın həyat tərzidir. Məhz bu kimi səbəblərdən irəli gələrək, rəmzi şəkildə cari il "Multikulturalizm ili" elan olundu. Mən və rəhbərlik etdiyim təşkilat üzvləri xaricdə səfərlərdə olarkən həmin ölkələrin təmsilçiləri Azərbaycanın multikultural ölkə olmasından, tolerantlıq nümunəsi sayılmasından sevə-sevə söhbət açıblar. Eyni zamanda biz gənclər də ölkəmizdəki bu dəyərlərin təbliği istiqamətində iş aparmışıq və aparırıq da. Təbii olaraq nəsillərin mübadiləsi prosesi baş verir. Azərbaycan gəncləri multikultural dəyərlərin, tolerantlıq ənənələrinin davam etdirilməsi istiqamətində əməli işlər görməkdə hər zaman maraqlıdırlar. Azərbaycan gəncində dini dözümsüzlük, radikallıq, digər xalqlara qarşı aqressiya yoxdur. Bu, əsrlərdən keçib bizlərə gələn tarixi missiyadır. Ata-babalarımız bu adət-ənənəni, yaşam tərzini qoruyub saxlayıb bizlərə çatdırıblar. Bizim də borcumuz onu qoruyub gələcək nəsillərə ərməğan etməkdir.

**- Yanvarın 29-da prezident İlham Əliyev ölkə gənclərinin bir qrupu ilə görüşdü. Görüşdə gənclərlə fikir mübadiləsi aparıldı, onların təklifləri dinlənildi, üzərlərinə düşən vəzifələr sadalandı. Gənclər həmin görüşdən hansı nəticəni çıxardılar?**

- Bu ənənə Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. 2003-cü ildən Azərbaycan Prezidenti kimi öz vəzifəsini icra edən cənab İlham Əliyev də mütəmadi olaraq gənclərlə görüşür, onların fikirlərini, təşəbbüslərini dinləyir. Ötən həftə də növbəti belə görüş baş tutdu. Dövlət başçısı müasir Azərbaycan tarixinin bir sıra məqamlarına, beynəlxalq ictimai-siyasi vəziyyətə, Dağlıq Qarabağ problemi və onun ədalətli həlli yollarına, gənclər siyasəti və digər bu kimi məsələlərdən söhbət açdı. Gənclər heç çəkinmədən düşündüklərini dilə gətirdilər, öz təkliflərini səsləndirdilər. Görüşdən əldə etdiyimiz qənaət bu oldu ki, Azərbaycan dövləti gənclər siyasətini bundan sonra da eyni tempdə davam etdirəcək, gənclər siyasəti dövlətin prioritetlərindən biri olaraq qalacaqdır. Cənab Prezident hərtərəfli təhlillər apararaq, bir sıra reallıqları diqqətə çatdırdı, gənclərin indiki zamanda üzərinə düşən vəzifələri, nə etməli olduqlarını xatırlatdı. Düşünürəm ki, olduqca səmimi mühitdə keçən bu görüş də digərləri kimi gənclərin yaddaşından silinməyəcək, orada səsləndirilən fikirlər, qarşıya qoyulan vəzifələr gənclərin əsas fəaliyyət istiqamətinə çevriləcək.

**Rufik İSMAYILOV**